

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (23.446)

20 fevral 2020-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da İtaliya Respublikasına dövlət səfərinə gəlib.

Dövlətimizin başçısının şərəfinə Romanın "Fiumicino" Beynəlxalq Hava Limanında fəxri qarovul dəstəsi düzülüb.

Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı İtaliya Xarici İşlər Nazirliyinin Dövlət Protokol İdarəsinin rəisi İniqo Lambertini, bu ölkənin Azərbaycandakı səfiri Auqusto Massari və digər rəsmi şəxslər qarşılayıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Romadakı məşhur "Villa Borghese" parkında dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin abidəsini ziyarət edib.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva abidənin önünə gül dəstələri qoyublar.

Bu abidə "Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 23 dekabr tarixli Sərəncamına əsasən ucaldılıb.



## Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzinin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq, "Naxçıvan şəhərində "ASAN xidmət" Mərkəzinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 16 yanvar tarixli Sərəncamının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında "ASAN xidmət" Mərkəzi yaradılsın.

2. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti:

2.1. "ASAN xidmət" Mərkəzinin Əsasnaməsini və ştat strukturunu hazırlayıb təsdiq etsin;

2.2. Bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 fevral 2020-ci il*

## Aqrar Sığorta Fondunun yaradılması günün tələbidir

*Muxtar respublika iqtisadiyyatının mühüm sahələrindən biri də aqrar bölmədir. Bu sahənin inkişafı üçün məqsədyönlü tədbirlərin keçirilməsi böyük əhəmiyyət daşıyır. Ona görə ki, aqrar sektor insan həyatı üçün zəruri istehlak məhsullarının böyük bir qismini təmin edir. Bu baxımdan qidalanma sisteminin coğrafi mühit və mədəni faktorlar əsasında formalaşdığını, əhalinin ərzaqla təminatının strateji əhəmiyyət kəsb etdiyini nəzərə alaraq hər bir ölkənin özünəməxsus, müstəqil aqrar siyasətinin olması mühüm bir vəzifə kimi ortaya çıxır.*



Kənd təsərrüfatında istehsalın əsas amillərindən birincisi torpaqdır. Ancaq torpaqda baş verə biləcək xoşagəlməz hadisələrə istehsalçılar tərəfindən tam nəzarət edilə bilmir. Yəni istehsalçının iradəsindən kənarda baş verən təbiət hadisələri istehsal səviyyəsinə birbaşa təsir edir. Texniki tədbirlərlə qarşısını almaq mümkün olmayan risklərin baş verməsi fermerləri çox çətin vəziyyətə salır, onların istehsal fəaliyyətlərinə mənfi təsir edir. İnkişaf etmiş və etməkdə olan bir çox ölkələrdə kənd təsərrüfatı sığortalarının tətbiqi ilə bu fəlakətlərin səbəb olduğu zərərlərin qarşısı alınır. Fəlakətlərə qarşı texniki tədbirlər yetərli olmadıqda kənd təsərrüfatı sığortaları ziyanın aradan qaldırılması üçün zəmanət yaradır. Aqrar sığorta istehsalçının gəlirlərində sabitliyi təmin edir, yeni texnologiyaların tətbiqinə dəstək verir.

Kənd təsərrüfatı sığortası mexanizminin tətbiqi qeyri-neft sektorunda ümumi daxili məhsulun artırılması ilə yanaşı, ərzaq təhlükəsizliyinin təmin olunmasına və aqrar sektorun investisiya cəlbediciliyinin yüksəlməsinə də müsbət təsir göstərir. Nəticədə, aqrar sığorta sisteminin tətbiqi ilə kənd təsərrüfatı məhsulları istehsalının davamlılığı və dayanıqlılığı təmin olunur. Belə ki, bu sistemin təkmilləşdirilməsi idxaldan asılılığın azaldılmasına və ixrac potensialının artmasına mühüm töhfə verməklə bərabər, aqrar sahədə çalışan sahibkarların maliyyə resurslarına çıxışını asanlaşdırır, bu sahəyə biznes marağının artmasına, sahibkarlığın genişləndirilməsinə və investisiyaların təşviqinə şərait yaradır. Bununla əlaqədar olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 8 yanvar tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikasında Aqrar Sığorta Fondu yaradılıb. Fondun yaradılması bəhs etdiyimiz istiqamətdə çox mühüm addımlardan biridir.

Aqrar Sığorta Fondu muxtar respublikada aqrar sığorta sisteminin təşkilini, inkişafını və dayanıqlılığını, habelə idarəedici qurumun formalaşdırılması və onun fəaliyyətinə nəzarət etmək məqsədilə yaradılmış qeyri-kommersiya hüquqi şəxsidir.



Fondun Nizamnaməsində aqrar sığorta sahəsində dövlətin vəzifələri, sığortanın predmeti, sığorta üzrə təminat verilən risklər, sığortanın tənzimlənməsi əksini tapıb. Aqrar sığortanın predmetinin tərkibinə kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları üzrə (buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, tütün, üzüm, limon, badam), kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar üzrə (1 yaşından 7 yaşına qədər südlük inək və camışlar), akvakultura məhsulu üzrə (balıqlar) aid edilir.

Aqrar sığorta predmetləri təbiət hadisələri, o cümlədən təbii fəlakətlər, yanğınlar, zəlzələlər, qasırğa, fırtına, dolu, torpaq sürüşməsi, bitki xəstəlikləri və zərərvericilər, yoluxucu xəstəliklər və zəhərlənmələr, ilan və ya həşərat sancması nəticəsində ölüm, kütləvi zəhərlənmələr nəticəsində ölüm, zəhərli otlar və yemlərdən istifadə, vəhşi heyvanların hücumu və xüsusi təhlükəli ziyanvericilərin yayılması və hücumu, üçüncü şəxslərin hərəkətləri üzrə risklərin bir və ya bir neçəsindən sığortalanırlar.

Aqrar sığortahaqqının hər bir sığorta məhsulu üzrə dövlət büdcəsinin vəsaiti hesabına ödənilməli olan hissəsi kənd təsərrüfatı bitkiləri və bitkiçilik məhsulları, kənd təsərrüfatı heyvanları və kənd təsərrüfatı məqsədilə yetişdirilən heyvanlar və akvakultura məhsulları üzrə 50 faiz həcmində müəyyən edilib.

Qeyd edək ki, fonda ümumi rəhbərliyi və nəzarəti ictimai əsaslarla fəaliyyət göstərən və 3 üzvdən ibarət İdarə Heyəti həyata keçirir. Fondun idarəedici qurumunun hərəkət və hərəkətsizliyindən verilmiş şikayətlərə baxılması üçün fond daxilində fəaliyyət göstərən Apellyasiya Şurası yaradılır. Aqrar sektorda sığorta ilə bağlı bütün məsələlər fond tərəfindən tənzimlənir.

Yuxarıda sadalanan bütün məsələlərin, yəni sığorta mədəniyyətinin insanlara aşılanması, əhalinin sığorta haqqında olan məlumatsızlığının aradan qaldırılması, ixtisaslı kadrların hazırlanması muxtar respublikamızda sığorta sisteminin daha da inkişafına böyük təsir göstərəcək və cəmiyyətdə sığortaya qarşı müsbət fikrin yaranmasına kömək edəcəkdir.


**Zəkəriyyə GÖZƏLOV**
*Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin aparat rəhbəri*


*Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin 2020-ci il iş planına uyğun olaraq "Naxçıvan Muxtar Respublika Xəstəxanası" publik hüquqi şəxsində çalışan tibb işçiləri üçün daha bir maarifləndirici tədbir keçirilib.*

## Tibb işçiləri üçün maarifləndirici tədbir keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında icbari tibbi sığortanın tətbiqinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 2019-cu il 26 dekabr tarixli Sərəncamından irəli gələn vəzifələrin icrası çərçivəsində keçirilən tibb işçiləri üçün maarifləndirici tədbiri giriş sözü ilə İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşı Vüsal Məmmədov açıb. O bildirib ki, muxtar respublikada icbari tibbi sığortanın tətbiqi uğurla davam etdirilir. Rayon mərkəzi xəstəxanalarında və icbari tibbi sığortanın tətbiqində iştirak edən digər tibb müəssisələrində agentliyin qeydiyyat məntəqələri yaradılıb və fəaliyyəti təmin edilib. Əhalinin sığortalanması prosesi həyata keçirilib, müraciət edən şəxslərlə sığorta müqaviləsi bağlanılıb. Göstərilən tibbi xidmətin keyfiyyətinin artırılması məqsədilə mərkəzi xəstəxanalarda müvafiq şöbələr yenidən təşkil edilib, tibb müəssisələrində "Səhiyyə İnformasiya İdarəetmə Sistemi" yaradılıb, həkim ambulatoriyaları və feldşer-mama məntəqələri yenidən qurulub. Vurğulanıb ki, müvafiq sərəncamlara uyğun olaraq Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasına, Naxçıvan Muxtar Respublika Xəstəxanasına, Əziz Əliyev adına Mərkəzi Uşaq Xəstəxanasına, Naxçıvan Muxtar Respublikası Doğum, Kardiologiya, Yoluxucu Xəstəliklər mərkəzlərinə, Ağciyər Xəstəlikləri Dispanserinə və Naxçıvan Şəhər Təcili Tibb Mərkəzinə publik hüquqi şəxs statusu verilib, tibb işçilərinin əməkhaqları əhəmiyyətli dərəcədə artırılıb. "Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilmiş müvafiq dəyişikliklərlə xidmətlər zərfi, sığorta haqları, sığortaçı, sığortaolunanların hüquqları, vəzifələri, sığorta hadisəsi zamanı sığortaolunanlara dəyən ziyanın ödənilməsi və onlara tibb müəssisələrində tibbi xidmət göstərilməsinin qaydaları daha da təkmilləşdirilib.

Sonra agentliyin əməkdaşı Ülviyyə Babayevanın mövzu ilə bağlı çıxışı dinlənilib.

Tədbirin sonunda iştirakçıların sualları cavablandırılıb.


*Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti yanında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi*

# Mineral sular muxtar respublikamızın iqtisadiyyatına töhfələr verir

***Mineral sular dünyada qeyri-bərabər yayılmaqla bəzi yerlərdə böyük quyular və hövzələr, bəzi yerlərdə isə kiçik bulaqlar şəklində mövcuddur. Fərqli növlərdə olan mineral sular, insanlar tərəfindən müxtəlif məqsədlər üçün istifadə edilməkdədir. Bir sıra xəstəliklərin müalicəsində, su tələbatının ödənilməsində, turizm potensialının təbliğində onların əhəmiyyətli rolu vardır. Təbiətin əsas neməti olan bu cür resurslar artıq ölkələr tərəfindən geniş məqsədlərin həyata keçirilməsi üçün istifadə olunmaqdadır.***




Mineral sular həm də iqtisadi baxımdan böyük əhəmiyyət kəsb edir. Artıq dünyanın bəzi inkişaf etmiş dövlətlərində qablaşdırılmış su istehsalı ümumi sənayenin bir hissəsi kimi qəbul olunur. Hazırda dünya iqtisadi sistemində butulka sənayesinin dəyəri milyon dollarlarla ölçülür. Araşdırmalar göstərir ki, son 15-20 ildə dünyada istifadə olunan mineral suyun miqdarı nəzərəçarpacaq dərəcədə çoxalıb. Xüsusən inkişaf etmiş ölkələrə xarakterik olan bu xüsusiyyət onunla əlaqələndirilir ki, bu ölkələrdə əhalinin böyük əksəriyyəti iri şəhərlərdə məskunlaşıb. Qablaşdırılmış mineral sular həcminə görə Amerika Birləşmiş Ştatlarında mühüm içki kateqoriyasındadır.

Bu gün mineral suların istehsalı və satışı bazarında geniş rəqabət mövcuddur. İrili-xırdalı xeyli sayda firmaların məhsullarının bazarlara çıxarıldığını nəzərə alsaq, onların sırasında keyfiyyətsiz və istifadəyə yararsızlarının da olduğunu söyləmək olar. Ona görə də istifadəçilər daha çox dağlardan axıb gələn təbii mənşəli və sertifikatlaşdırılmış istehsala əsaslanan məhsullara üstünlük verməlidirlər.

Ümumi olaraq mineral suların iqtisadi baxımdan səmərəliliyindən danışarkən qeyd etməliyik ki, hər hansı bir bölgədə belə suların mövcud olması məhsulun qablaşdırılması üçün müəssisə və sənaye obyektlərinin yaradılması zərurətini də ortaya çıxarır. Bu da əlavə gəlir və iş yerləri deməkdir. Eyni zamanda təcrübə göstərir ki, yeraltı sularla zəngin olan bölgələr zaman keçdikcə turistlərin diqqətini də cəlb edir.

Məlum olduğu kimi, mineral bulaqların əsas yayılma areallarından biri də ölkəmizin dilbər guşələrindən hesab olunan Naxçıvan Muxtar Respublikasıdır. Bəzi mənbələrdə göstərilir ki, ölkəmizdə mövcud olan mineral bulaqların 30-35 faizi məhz muxtar respublika ərazisindədir. Burada müxtəlif tip karbonatlı suların olması ərazinin zəngin hidromineral ehtiyatları ilə əlaqəlidir. Bu zənginlik hesabına muxtar respublika ərazisi “Mineral sular muzeyi” adlandırılır. Təhlillər göstərir ki, uzun zamandan bəri ərazidə mövcud olan mineral suların böyük əksəriyyəti görülən işlər nəticəsində müalicəvi faydaları ilə bərabər, iqtisadi töhfəsini də verməkdədir. Belə ki, bu gün muxtar respublikamızda istehsal olunan suların əksəriyyəti daxili tələbatı lazımınca təmin etməklə yanaşı, həm də xarici bazarlara və qonşu ölkələrə də ixrac olunur.

Naxçıvanda hazırda istehsal olu-




nan, qablaşdırılan və satışı təşkil edilən sular arasında “Badamlı”, “Sirab”, “Çınqıllı”, “Gülüstan”, “Böyrək suyu” xeyli üstünlük təşkil edir ki, onların istifadə tarixi bir neçə onilliklər öncəyə gedib çıxır. Günümüzdə isə bu suların markalarına artıq, demək olar ki, ölkəmizin bütün regionlarında rast gəlmək mümkündür. Sevindirici haldır ki, bu gün muxtar respublikamızda istehsal olunan və İSO 9001-2015 və İSO 22000-2005 sertifikatlarına layiq görülən “Badamlı” və “Sirab” süfrə suları ölkəmizdən kənara da ixrac edilir, bir çox beynəlxalq sərgilərdə “Made in Azerbaijan” brendi altında təmsil olunur. Yeri gəlmişkən, bu mineral sular bir sıra mükafatlara da layiq görülüb.

Mineral sularla yanaşı, təbii mənşəli “Çınqıllı” və “Böyrək suyu” da müəyyən əhəmiyyətə malikdir. Düzdür, “Sirab” və “Badamlı” qədər məşhur olmasalar da, bunlar muxtar respublikada ucuz və keyfiyyətli içməli suya olan tələbatın ödənilməsində əsas məhsullardır və gələcəkdə onların da ixracı gözlənilir.

Bəs qeyd olunan suların iqtisadi baxımdan effektivliyi necə qiymətləndirilə bilər? Vurğulanmalıdır




ki, bu mineral sular daxili tələbatın ödənilməsində də müəyyən rola malikdir. Baxmayaraq ki, muxtar respublikada idxal olunmuş digər şirəli və qazlı içkilər də satılır, lakin yerli təbii süfrə sularına tələbat daha çoxdur. Əhali, əsasən, keyfiyyətcə üstün, ekoloji sağlam və xüsusilə də bir sıra müalicəvi xüsusiyyətlərə malik yerli məhsullara üstünlük verir. Digər tərəfdən, istehsal olunan bu məhsulların qiymətləri olduqca sərfəlidir və hər kəsin büdcəsinə uyğundur. Demək olar ki, müvafiq müəssisələrin, restoran və mağazaların ilin hər fəslində süfrə suyuna olan tələbatı lazımınca ödənilir. Bu gün muxtar respublikada toy və şadlıq mərasimlərində yerli istehsal olan sular üstünlük təşkil edir ki, bu da əhalinin xərclərinin tənzimlənməsinin əsas meyarıdır. Eyni zamanda “Sirab” və “Badamlı” mineral suları hazırda ölkəmizdə ən ucuz satılan mineral sular arasında yer alır. Bu sular ölkəmizə idxal olunan digər mineral sulardan fərqli olaraq istehlakçılara daha ucuz qiymətə təklif olunur.

Bunu da qeyd edək ki, “Badamlı” mineral suyunun istehsal olunduğu müəssisə 2019-cu ildə yenidən qurulub, burada quraşdırılan müasir avadanlıqların sayəsində zavodun istehsal gücü artırılıb. O cümlədən “Sirab” mineral suyunun istehsal olunduğu müəssisə də son illərdə yeni texnoloji avadanlıqlarla təmin olunub. Gələcəkdə hər iki müəssisənin məhsullarının Avropa bazarlarına çıxarılması planlaşdırılır. Hesab edirik ki, olduqca faydalı və ekoloji cəhətdən təmiz olan bu məhsulların ixrac potensialının artırılması gələcəkdə muxtar respublika iqtisadiyyatının maliyyə dayanıqlılığının gücləndirilməsinə və şaxəli inkişafına stimul verəcəkdir.

**Eltun İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, iqtisad üzrə fəlsəfə doktoru***

# Daha bir su dəyirmanı ikinci “ömrünü yaşayır”

## *Ona “həyat verilməsi” tariximizə ehtiramın ifadəsidir*

***Tarixi mənbələrdən məlumdur ki, çox qədim dövrlərdən taxılçılığın inkişaf etdiyi Azərbaycanda hələ Neolit dövründə taxılın una çevrilməsi üçün sadə dən daşlarından istifadə olunub. Bu əl dəyirmanlarını sonradan su və yel dəyirmanları əvəz edib. Dəyirmanların inkişafı və təkmilləşməsi əmək məhsuldarlığının yüksəlməsi və dənin üyüdülməsinin yaxşılaşması ilə nəticələnib. XX əsrdə elektriklə işləyən dəyirmanların yaranması su dəyirmanlarının sıradan çıxmasına və unudulmasına səbəb olub. Lakin muxtar respublikamızda bu gün də su dəyirmanlarından geniş istifadə edilir. Bu da o deməkdir ki, diyarımızda qədim məişət ənənələri qorunub yaşadılır.***





Naxçıvan Muxtar Respublikasında taxılçılıq strateji əhəmiyyətə malik istiqamət kimi daim diqqətdə saxlanılır. Statistikaya nəzər salsaq görərik ki, 2019-cu ilin məhsulu üçün 33 min 308 hektar sahədə taxıl əkilib. Bunun da 31 min 667 hektarı payızlıq, 1641 hektarı isə yazlıq taxıl olub. Taxıl zəmilərinin 24 min 729 hektarında buğda, 8579 hektarında isə arpa əkilib. Bir il öncəyə nisbətən taxıl əkini sahəsi 825 hektar artıb. 2019-cu ildə taxıl zəmilərindən 102 min 984 ton məhsul tədarük edilib ki, bu da bir il öncəki göstəricidən 5295 ton çoxdur.

Qayıdaq söhbətimizin əvvəlinə. Muxtar respublikamızda tarixi-mədəni irsimizin bir parçası, milli məişətimizin ayrılmaz hissəsi kimi su dəyirmanlarının bərpası diqqət mərkəzində saxlanılır. Belə dəyirmanlardan biri də Ordubad rayonunun Darkəndindədir.

Məlumat üçün bildirək ki, Darkənd Aza kənd inzibati ərazi dairəsinin tərkibindədir, bir-birinə bitişik yaşayış məntəqələridir. Deyilənə görə, buradakı dəyirman, təxminən, ötən əsrin 40-cı illərində tikilib. Uzun illər Darkənd sakinlərinin istifadə etdikləri dəyirman 2000-ci ilin əvvəllərində camaatın vəsaiti ilə qismən təmir olunsa da, ondan uzun müddət istifadə etmək mümkün olmayıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı ilə 2019-cu ildə milli-mədəni və tarixi dəyərlərimizə qayğının ifadəsi kimi dəyirmanın yenidən qurulmasına başlanılıb, cari il yanvar ayının 13-də isə istifadəyə verilib. Qeyd edək ki, bu, muxtar respublikada bərpa olunan beşinci su dəyirmanıdır.

Biz də dəyirmanın yenidən qurulması ilə bağlı kənd sakinlərinin fikirlərini öyrəndik. Ağsaqqallardan Hüseyn Süleymanovla həmsöhbət olduq. O bildirdi ki, Ordubad rayonunda əkinçilik yerli əhalinin başlıca məşğuliyyət sahələrindəndir. Taxılçılıq isə əkinçiliyin əsasını təşkil edir. Hər il zəmilərdən bol məhsul əldə olunur. Darkənddə də taxılçılıq inkişaf edir. Əkin yerlərindən yaxşı məhsuldarlığa nail olan torpaq mülkiyyətçilərinin üz tutduqları yerlərdən biri də su dəyirmanlarıdır. Dəyirmanlar xalq arasında xeyirbərəkət rəmzi kimi dəyərləndirilir. Vaxtilə kəndimizdəki dəyirmandan qonşu kəndlərin sakinləri də istifadə ediblər. Darkənd su dəyirmanının yenidənqurmadan sonra istifadəyə verilməsi bütün kənd sakinlərini sevindirir. Çünki bu dəyirmanda istehsal olunan un kənd sakinlərinin tələbatını ödəyəcək, onların yaşayışına müsbət təsirini göstərəcək.

Digər kənd sakini Rəhim Allahverdiyev isə dedi ki, dənin üyüdülməsinin sürəti suyun gurluğundan və daşların diametrindən asılıdır. Dəyirmana su kanalının çəkilməsi də işimizi asanlaşdırıb. Su dəyirmanında üyüdülən undan bişirilən çörək daha dadlı və ətirli olur. Digər tərəfdən, belə dəyirmanlarda əldə olunan undan bişirilən çörək keyfiyyəti ilə yanaşı, insan orqanizmi üçün də çox faydalıdır. Su dəyirmanının yenidən istifadəyə verilməsi digər yaxın kəndlərin sakinlərinə də ondan yararlanmaq üçün geniş imkan açıb.

Ruzi-bərəkət, halallıq rəmzi kimi müqəddəs sayılan su dəyirmanları haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri deyib: ***“Bu gün müstəqil ölkəmizdə bütün sahələrin inkişafı ilə yanaşı, tarixi-mədəni irsimizin qorunması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir. Çünki hər bir tarixi-mədəni abidə xalqımızın milli sərvəti, onun tarixini və qədim mədəniyyətini yaşadan nümunədir. Buna görə də muxtar respublikamızda tarixi-mədəni abidələrimizin qorunması istiqamətində ardıcıl tədbirlər görülür. Bu tədbirlər çərçivəsində xalqımızın məişət mədəniyyətinin bir parçası olan su dəyirmanlarının yenidən bərpa olunaraq istifadəyə verilməsi mühüm əhəmiyyət kəsb edir. Xalqımızın tarixi-mədəni dəyərlərini qorumaq vacib məsələdir. Hər bir ölkənin keçmişi həm də onun abidələrində yaşayır…”***

Dəyirmanlarımız bərəkət ocağı, ruzi mənbəyi, bizə ulu babalarımızın yadigarıdır. Darkənddəki bu yadigar da tariximizə böyük ehtiramın bariz ifadəsi kimi artıq ikinci “ömrünü yaşamaqda”, kənd sakinlərinə öz töhfəsini verməkdədir. Onu qoruyub saxlamağı və gələcək nəsillərə çatdırmağı isə dəyirmandan istifadə edənlər özlərinin mənəvi və vətəndaşlıq borcu hesab edirlər.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***Muxtar respublikanın təbii sərvətlərindən səmərəli istifadənin tənzimlənməsi, flora və fauna ehtiyatlarının qorunması, ətraf mühit komponentlərinə təsirlərin azaldılması və nəzarətdə saxlanılması məqsədilə Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən yanvar ayında da tədbirlər davam etdirilmişdir. Ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi hallarına qarşı mübarizə aparılması məqsədilə 12 yoxlama-reyd keçirilmiş, 5 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür.***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

Bu məqsədlə Şahbuz rayonunun Kükü, Ordubad rayonunun Unus kəndlərində əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, ətraf mühitin mühafizəsi, brakonyerlik hallarına qarşı mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları müzakirə olunmuşdur. Həmçinin Şərur, Babək və Kəngərli rayonlarında heyvandarlığın inkişaf etdirilməsi, məhsuldarlığın artırılması və yay-qış otlaqlarından səmərəli istifadə qaydaları haqqında heyvandarlar və təsərrüfat sahibləri ilə söhbətlər aparılmışdır.

Ötən ay Şərur, Şahbuz, Culfa, Ordubad və Kəngərli rayonlarının yaşayış məntəqələri ərazilərində monitorinqlər təşkil edilmiş, məişət, tibbi və bərk tullantıların idarə olunması kimi fəaliyyət sahələrində qiymətləndirmə işləri həyata keçirilmişdir. Sədərək rayonu ərazisindən keçən Şir arxından su nümunələri götürülərək analizlər aparılmışdır.

Hesabat ayında yeni salınmış meyvə və üzüm bağlarına, tinglik sahələrinə baxış keçirilmiş, həmin ərazilərin gəmirici ziyanvericilərin təsirindən qorunması, fauna ehtiyatlarının qaba yem və daşduza olan tələbatının ödənilməsi üçün biotexniki tədbirlər aparılmışdır. Ərazilərə, ümumilikdə, 1450 kiloqram daşduz, 120 kip qaba yem və 2300 kiloqramdan çox meyvə-tərəvəz qalığı dağıdılmışdır.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Oxucu məktubları

## Bizə yazırlar

### Bu yurdu gözəlləşdirən el məhəbbətidir



*Qədim Naxçıvanın səmimi insanlarına salamlarımı çatdırıram!*

*Bakıya qayıdarkən belə, bir həftə qonaq olduğum Qafqazın cənnəti, qədim Naxçıvanda keçirdiyim günləri xəyalımda canlandırıram. Naxçıvana ilk dəfə 1991-ci ildə naxçıvanlı bir tələbə yoldaşımla yay tətilində gəlmişdim. Şəhərin hava limanı məndə xoş təəssürat yaratmışdı. Hava çox isti, çöldə taksi gözləyəndə kölgəsinə sığınacağımız bir ağac yox idi. Yerli sakinlərdən biri dedi ki, qış çox sərt keçdiyi üçün məcbur qalıb ağacları kəsib onunla isinirik.*

Taksiyə əyləşib Sədərək kəndinə yola çıxdıq. Yollar bərbad gündə idi. Evə çatdıq, işıq, qaz olmaması bir yana, bir tərəfdən də erməni hücumu dayanmır, top səsindən qulaq tutulurdu. Qonağı olduğum evin sahibi həyətdəki, bəlkə də, həyətindəki son quzunu məni yaxşı qarşılamaq üçün kəsdi. Təndir qalayıb çörək də bişirdi. Süfrəni açaaça dil-ağız elədi: "Ay bala, Allah bu erməninin üzünü qara eləsin. Kasıblər yolu-izi, qazı, işığı. Qonaq qarşısında da xəcalət olur insan".

İki gün qala bildim həmin il Naxçıvanda. O çətin günlərdə xalqın birliyini, vətənpərvərliyini, yurd sevgisini gördüm. İnsanların döyüşə necə həvəslə getdiklərini, Vətənlərini necə ürəkdən sevib qoruduqlarını bu gün də heyranlıqla xatırlayıram.

Budur, 29 ildən sonra yenə Naxçıvandayam. Bu dəfə Şərur rayonuna toya gəlmişəm. Təyyarə hava limanına endi. Taksiyə əyləşib yola çıxdığımda qarşılaşdığım mənzərə inanılmaz idi. Bir diyar nə qədər inkişaf edib dəyişə bilər? Gördüklərim qarşısında heyrətlənir, "doğrudanmı bura 29 il öncə gördüyüm Naxçıvandır?" – deyə düşünürdüm. Abad yolların, təmiz küçə və prospektlərin, yolboyu baş-başa verən ağacların üzərinə həzin-həzin yağan qar, sanki bu gözəlliyə daha bir gözəllik qatırdı. Sakitlik həzin bir nəğmə kimi insanın ruhuna rahatlıq gətirirdi. Mən görən deyil, bura bir cənnətdir, – deyə düşünə-düşünə kəndə çatırıq. Müharibənin izlərindən əsər-əlamət belə, yoxdur daha. Abad evlərin pəncərələrindən düşən işıq, bacalardan çıxan tüstü, asfalt yol, ali təhsil ocağını xatırladan məktəb binasını görəndə illər öncəki top mərmiləri ilə xarabaya çevrilən Sədərək kəndini xatırlayıram. Və düşünürəm ki, buradakı insanlar vaxtilə düşmənə sinə gərdikləri kimi, uzun illərdir, blokadada yaşaya-yaşaya öz yurd-yuvalarını inkişafa da qovuşdura biliblər.

Mehriban, güləruz insanların əhatəsində süfrə başındayam... Bu dəfə onların çöhrəsində rahatlığın, firavanlığın sevincini duyuram. İllər öncəki təlaşın yerini bu gün asayiş, əmin-amanlıq, rifah alıb. Daha dağ kəndlərində belə, işıqlar heç vaxt sönmür, mavi qaz yanır. Əziz, doğma naxçıvanlıların firavan gələcəyi daha da gözəl olacaq. Mən buna əminəm, ona görə ki, burada tarixboyu hər kəsin qəlbində el sevgisi, torpaq məhəbbəti olub.

**Novruz MƏMMƏDZADƏ**
***Dağıstan Respublikasının sakini***

## Minnətdarlıq

### Vətəni qoruyanların arxasında güclü dövlətimiz dayanır

*Hörmətli redaksiya!*

Gözümün ilki, böyük oğlum Asif 1998-ci ildə hərbi xidmət zamanı şəhid olub ölümsüzlüyə qovuşub. O öz qanı ilə adını tarixə yazdı, məni isə şəhid anası kimi müqəddəs məqama layiq gördü. Oğul itkisindən elə sarsılmışdım ki, bundan sonrakı həyatımda onsuz necə yaşayacağımı bilmirdim. Amma həyatımın ən çətin anlarında muxtar respublika rəhbərinin və həmyerlilərimin dərdimə şərik olmaları yanan ürəyimə su səpdi.



Uzun illərdir ki, Babək rayonunun Şıxmahmud kəndində yaşayırdım. Düzü, övladlarım ailə qurandan və nəvə sahibi olandan sonra ikiotaqlı mənzil bizə yetmirdi. Elə bu səbəbdən də Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət etdim. Nazirliyin işçiləri qısa bir vaxtda mənimlə görüşüb mənzil şəraitimlə maraqlandılar. Yanvarın 14-də Babək rayon mərkəzində yeni inşa edilən binada mənzillə təmin olundum. Yeni ilin ilk günlərində bu hədiyyə ailəmizin sevincinə səbəb olmaqla bərabər, dövlətimizə minnətdarlıq hissini də artırdı.

Bu gözəl, qədim diyarda bizim kimi şəhid ailələrinə göstərilən qayğı səngərdə döyüşən hər bir hərbçinin sabaha inamını artırır, onları döyüşə daha da ruhlandırır. Onlar əmindirlər ki, Vətən yolunda canlarından keçməli olsalar, ailələrinin arxasında duracaq, onlara qayğı göstərəcək güclü dövlətimiz var. Asif kimi oğullarımız yenə də iradə və əzmkarlıqla, canları bahasına olsa belə, Vətənimizi qoruyacaqlar.

Mən bir şəhid anası kimi şəhid ailələrinə qayğı ilə yanaşan Ali Məclis Sədrinə minnətdarlığımı bildirirəm.

**Tükəzban İSMAYILOVA**
***Babək rayon sakini***

### Sahibkarlara qayğı onların fəaliyyəti üçün böyük stimuldur

*Salam, hörmətli redaksiya!*

*Bu məktubu sizə Babək rayonunun Şıxmahmud kəndindən yazıram. Bildiyiniz kimi, bu gün muxtar respublikamızda sahibkarlığın inkişafına hərtərəfli diqqət və qayğı göstərilir. Son illərdə qədim diyarımızda müxtəlif sahələrdə öz işini quran, fəaliyyətləri ilə həm də yeni iş yerlərinin yaradılmasına böyük töhfə verən sahibkarların sayının artması bunun parlaq nümunəsidir.*

Görülən işlər çərçivəsində ailə təsərrüfatlarına göstərilən qayğını da nəzərə almamaq olmaz. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması belə təsərrüfatların fəaliyyətinə geniş imkanlar açmışdır. Mən də artıq bir neçə ildir ki, ailə təsərrüfatı fəaliyyəti ilə məşğulam. Təsərrüfatımızda, əsasən, iribuynuzlu mal-qara saxlayırıq. Ötən dövrdə ailə büdcəmizin hesabına heyvanların baş sayını artırmışıq. Lakin məqsədimiz bu sahədə fəaliyyətimizi daha da genişləndirmək idi.

Buna görə, ötən il Sahibkarlığın İnkişafı Fonduna müraciət etdik və qısa müddətdə müraciətimizi dəyərləndirdilər. Belə ki, bu il fevralın 6-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov sahibkarlarla görüşdə digərləri ilə yanaşı, mənə də güzəştli kreditin çekini təqdim etdi. Bunun da nəticəsində hazırda təsərrüfatımıza qoyulan 70 min manatlıq investisiyanın 35 mini dövlət hesabına təmin olunmuşdur. Bizə göstərilən qayğıya görə qəzetiniz vasitəsilə dövlətimizə minnətdarlığımızı bildiririk. Gələcəkdə daxili bazarın ət və süd məhsulları ilə təminatına daha çox töhfə verməyə çalışacağıq.

**Süleyman YUSİFOV**
***Babək rayonu, Şıxmahmud kənd sakini, ailə təsərrüfatı sahibi***

### Tarixi abidələrimizə və milli dəyərlərimizə ehtiram



*Hörmətli redaksiya!*

Muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən tikinti-quruculuq tədbirləri bu qədim yurd yerini gözəlliklər məskəninə, müasirliyə qovuşdurub. Həmin tədbirlərin bütün sahələri əhatə etməsini isə hər birimiz öz həyatımızda görür, sevinirik. Sevinirik, həm də ona görə ki, quruculuq tədbirləri tarixi abidələrimizi və tikililəri də əhatə edir. Belə tikililər sırasında su dəyirmanları da vardır. Onlardan biri də yaşadığım Ordubad rayonunun Darkəndində ötən əsrin ortalarında elin gücü ilə tikilmiş dəyirmandır.

Məlumat üçün bildirim ki, Darkənd sakinləri ilə yanaşı, qonşu yaşayış məntəqələrinin camaatı da uzun illər bu dəyirmandan istifadə edib. Lakin ötən əsrin 90-cı illərində bu tarixi tikilinin də fəaliyyəti dayandırılmış və yararsız hala salınmışdı.

2019-cu ildə dəyirmanın yenidən qurulmasına başlanılması hamımızı sevindirdi. Cari il yanvar ayının 13-də dəyirman Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun iştirakı ilə istifadəmizə verildi. Artıq istehsal etdiyimiz taxılı həmin dəyirmanda üyütmək imkanı qazanmışıq. Bu, darkəndlilərin su dəyirmanında əldə olunan undan istifadəyə maraqlarını daha da artırıb. Kənd sakinləri adından bizə göstərilən qayğıya görə Ali Məclisin Sədrinə minnətdarlığımızı bildiririk.

**Sənan BAXŞIYEV**
***Ordubad rayonu, Darkənd sakini***

## Razılıq

### Yurdumuz firavan günlərini yaşayır



*Salam, hörmətli redaksiya!*

Bu məktubu sizə ünvanlamağı öz vətəndaşlıq borcum bilirəm. Çünki bu qədər qayğı və diqqəti qiymətləndirməmək mümkün deyil. Yaşadığım Xələcdə, elə qonşu kəndlərdə də böyükdən-kiçiyə məni hamı tanıyır. Elə bilirəm, sözlərimə kənd sakinlərinin hamısı şərik olar. Dədə-babadan buranın yerli sakinləriyik, yaşımız da az deyil. Bu yurd heç vaxt indiki kimi abad olmayıb. Heç yatsaq yuxumuza da girməzdi ki, bu cür şəraitə malik məktəbimiz, xidmət mərkəzimiz olacaq. SSRİ dövründə çöldə, kolxozda, fermada gün çıxandan ta gün batana kimi işləyirdik. Vallah, elə olurdu vaxt tapıb yemək də yeyə bilmirdik. Tonlarla tütün, üzüm, pambıq təhvil verirdik. Zəhmətimizin qarşılığında yenə də şəraitsizlikdən əziyyət çəkirdik. Nə yolumuz-izimiz, nə xəstəxanamız, nə də telefonumuz var idi. İndi şükür Allaha, güllük-gülüstana çevrilib kəndlərimiz. Cavanlar nə yaxşı ki o dövrləri, necə çətin sınaqlardan keçib bu günə gəldiyimizi görməyiblər. Amma biz yaşlı nəsil o çətin, ağır zamanları heç vaxt unutmarıq. Hər gün bu yeniliyə, gözəlliyə baxdıqca insan fərəh hissi keçirir. Şükürlər olsun, yaxşı yaşamağımız üçün hər cür şəraitimiz var.

Bu məktub vasitəsilə kənd sakinləri adından firavan günlərimizin səbəbkarına, qurub-yaradanlara ürəkdolusu minnətdarlığımızı çatdırırıq.

**Cəmşid HƏSƏNOV**
***Şərur rayon Xələc kənd sakini***

### Müqəddəs peşə borcumuzu layiqincə yerinə yetirəcəyik

*Hörmətli redaksiya!*

Azərbaycanda və onun ayrılmaz hissəsi olan Naxçıvanda ulu öndərin siyasi kursunun layiqli davamçısı Prezident cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində səhiyyə sistemində aparılan uğurlu islahatların, tibb müəssisələrinin maddi-texniki bazalarının təkmilləşdirilməsinin, təchizat və kadr hazırlığı ilə bağlı görülmüş işlərin bəhrəsini bu gün hər birimiz görürük.

Aparılan islahatlar əhalinin dövlət tibb müəssisələrinə inamını artırmaqla bərabər, tibb işçilərinin sosial vəziyyətinin də yaxşılaşmasına xidmət edir. Bu gün təkcə şəhər, rayon mərkəzlərində yox, ucqar kəndlərdə belə, işləyən həkim və orta tibb işçiləri üçün əlverişli iş şəraiti yaradılıb. Muxtar respublikada səhiyyənin inkişafı istiqamətində görülən işlərin davamı olaraq icbari tibbi sığortanın tətbiqinə başlanılması tibb işçilərinin aylıq vəzifə maaşlarına da müsbət təsir göstərib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Diaqnostika Müalicə Mərkəzi" publik hüquqi şəxsin işçilərinin aylıq vəzifə maaşlarının 2020-ci il fevralın 1-dən 50 faiz artırılması haqqında imzaladığı Sərəncam kollektivimizin sevincinə səbəb olub. Biz səhiyyə işçiləri də bu dövlət qayğısına cavab olaraq əhaliyə tibbi xidmətin keyfiyyətinin yüksəldilməsində, insanların sağlamlığı keşiyində durmaq kimi müqəddəs peşə borcunun layiqincə yerinə yetirilməsində daha səylə çalışacağıq.



**Fərizə BAYRAMOVA**
***tibb bacısı***

# Tarzan
## (hekayə)

Günəbaxan çubuğundan düzəltdiyi "atını" yolun toz-torpağında sürüyə-sürüyə səbirsizlənirdi ki, bircə axşam düşsəydi, "Tarzan" filminə baxardı. Bəzən də içini qaranlıq alırdı ki, birdən işıqlar yanmaz, ya da başqa nəsə baş verər baxa bilməz, o zaman təmiz dilxorçuluq olar...

...Ertəsi gün səhər tezdən hamı baxdı ki, Fərzəli həyətlərindəki qollu-budaqlı, qocaman tut ağacından yoğun bir kəndir asıb, budaqdan-budağa tullanaraq tarzanlıq edir. Və tarzanlığı da təkcə tullanmaqla bitmirdi, həm də tarzansayağı qışqır-bağır salıb qonşuların başbeynini aparırdı. Artıq hamıya aydın idi ki, axşam "Tarzan" filmini izləyənlərdən biri də Fərzəli olub. Onun bu hərəkətləri atası Haxverdiyə, xüsusilə ləzzət edirdi. Çünki Fərzəli nə edirdisə, Haxverdi düşünürdü ki, bunu heç kim bacarmaz və onun oğlundan heç yer üzündə yoxdu, ondan bir dənədir. Lovğalığı, yalan-palan sözləri, riyakarlığı ilə Çeşməli kəndində ad çıxaran Haxverdi barədə həm də onu deyirdilər ki, bu adam yaltaqlığı hörmətdən salıb. Kəndin çayxanasında oturub danışanda o qədər özündən hörələyirdi ki, tanış-biliş pıçıltı ilə "Haxverdiyə yenə dərzi lazımdı", – deyərək gülüşürdü...

...Ala danalarının kəndirini ağaca bağlayıb elə dana kimi də böyürən oğlunu görəndə Haxverdi adəti üzrə yenə də ləzzət çəkdi: "Oğuldu yee, oğul, o boyda ağacın başına necə çıxıb, ə bu?!" – deyə astadan dilləndi. Çox çəkmədi ki, Fərzəlini yanına çağırıb kürəyinə asta-asta vuraraq dedi:

– Əəə, bə sən ora necə çıxıbsan?!

– Tezdənnən ordayam, dədə...

– Halaldı, mənim oğlum belə də olmalıdı... Məndən sənə məsləhət: ucalmaq, yüksəlmək üçün bundan sonra da nə lazımdırsa elə... Lap ən aşağı bildiyin adamın da qabağında ikiqat əyil, qapısında süpürgə ol, əynində qaloş ol, çarıq ol, ancaq səni həmişə bugünkü kimi ucalarda görüm...

"Ana gəzən ağacları balası budaq-budaq gəzər" məsəli kimi, həmin gündən Haxverdi nə tökürdüsə, Fərzəli də onu yığışdırırdı. Seçilmək, ucalmaq üçün hər şeyi edirdi, ancaq lazım olan heç nəyi etmirdi: dərslərini oxumurdu, zəhmətə qatlaşmırdı, evə heç bir kömək etmirdi, bədii kitab üzü açmırdı, özünü mənəvi baxımdan zənginləşdirmirdi... Əvəzində isə sinifdə, idman dərslərində, məhəllə oyunlarında uşaqları bir-birinə qarşı qızışdırır, fiziki cəhətdən daha qüvvətli gənclərə yaltaqlanır, onların sağına-soluna keçir, ayaqqabılarını cütləyir, üst-başlarını təmizləyir, sinifdə yaxşı oxuyan uşaqları müəllimlərin gözündən salmaq üçün hər variantı sınaqdan çıxarırdı.

Gün gəldi, məqam yetişdi, Fərzəlinin də ali məktəblərə qəbul imtahanının vaxtı çatdı. Səhvləri o qədər çox oldu ki, bir-iki düzünü də vurub apardı. Və beləliklə, o, imtahanlarda sıfırın altında bal topladı. Kənddə hamı rişxənd və məzəylə deyirdi ki, Fərzəli imtahanlarda dövlətə borclu qalıb.

Sonra əsgərlik dövrü başladı. Bir dəfə nümunəvi xidməti ilə ad-san qazanmış əsgər yoldaşı Zamiqin fərdi silahının darağını oğurlayıb postun yaxınlığındakı meşəlik ərazidə gizlətdi. Zamiq tabeliyindəki texniki vasitələrlə ehtiyatsız davrandığına görə ciddi cəza aldı. Fərzəli isə bir neçə gündən sonra darağı "tapan" əsgər kimi komandirin gözünə girə bildi. Haqq-ədalət yerini tapıb, hər şey ortaya çıxanda isə adəti üzrə yenə də itdəndüşmüş oldu. Ancaq xidmət müddətində bu cür oyunlar qurmağın da peşəkarına çevrildi.

Haxverdi də artıq, öz növbəsində, bütün "imkanlarını" işə salıb Fərzəliyə iş düzüb-qoşmaqla məşğul idi ki, əsgərlikdən qayıdanda boş qalmasın. Ona görə də mərkəzi şəhərlərin birində özəl şirkətlər birliyinin rəhbəri olan uzaq qohumları Firdovsinin evinə kənd qatığı, bal, kənd yumurtası daşımaqdan yesir olmuşdu. Qabağında ikiqat qalmaqdan az qala beli əyilmişdi...

Bir müddət sonra artıq Fərzəli həmin şirkətin təsərrüfat işlərini idarə edirdi. Tez-tez də yalan, hiylə, kəm-kəsir, işçilərlə tərbiyəsiz rəftarı ilə gündəmə gəlirdi. Haxverdi də kənddə hey deyirdi ki, Firdovsi bütün işini Fərzəliyə tapşırıb, şirkəti Fərzəli idarə edir. Bu gün – sabah öz şirkətini açacaq, onda görəssiz mənim oğlum kimdir...

Əvvəllər özünü işgüzar, öz rəhbərinə sədaqətli göstərərək xüsusi yaltaqlanmaq bacarığı ilə dərin etibar qazanan Fərzəli yavaş-yavaş bu etibarı özünün şəxsi maraqları naminə istifadə etməyə başladı. Çox keçmədi ki, şirkət kəsirləri, iqtisadi tənəzzülü ilə gündəmə gəldi. Firdovsi baxdı ki, nəinki irəliləyir, hətta günü-gündən batır. Fərzəli çörək yediyi qaba tüpürdükcə tüpürür: oğurlayır, başqa adamların adına vəsaitləri yönəldərək nağdlaşdırmaqla mənimsəyir, bir sözlə, çapıb-talayır, oğurladıqlarının da böyük bir qismini eyş-işrətə xərcləyir. Nəhayət, işin axırı məhkəmədə bitdi və Fərzəli 10 il həbs cəzası aldı. Haxverdinin ürəyi həbsxanaya yol döyməyə 7 il tab gətirdi. Arvadı Nubar da ondan 1 il sonra ağır xəstəlikdən həyatla vidalaşdı.

...15 il sonra Fərzəli öz doğma kəndlərinə qayıdanda darvazalarının ağzında uca otlar göyərmişdi. Paslı məftillə bağlanmış taxta darvazanı açıb həyətə girdi. Tövlə də, samanlıq da, evləri də, sanki kiçilib bir balaca olmuşdu. Qocaman tut ağacı da yerində idi, amma artıq əldən düşdüyü hiss olunurdu. Evə girib bir vaxt "Tarzan" filmini izlədiyi ağqara televizoru yandırdı. Efirdə Azərbaycanın görkəmli təbiətşünas alimi Həsən bəy Zərdabi barədə film yayımlanırdı. Filmdə Həsən bəyin bu fikirləri onu silkələdi, sanki ildırım kimi vurdu: *"Ucalmaq üçün uca ağacların başına çıxmaq lazım deyil, körpə fidanlar əkmək lazımdır"...*

Evdən çölə çıxıb qocaman tut ağacının altında var-gəl edib qaraqara fikrə getmişdi. Axı atası bir vaxtlar uca ağacların başına çıxdığına görə onunla fəxr etmişdi... Amma ona körpə fidanlar, balaca tinglər əkməklə ucalmağı öyrətməmişdi. Əgər öyrətsəydi, indi Fərzəli də uca insanlardan biri idi... Türmədən yenicə qayıtmış işsiz-gücsüz, hörmətsiz bir avara yox...

**Sahil TAHİRLİ**
***"Nuhçıxan" İnformasiya Agentliyi***

# Muzeylərin rəsmi internet saytları istifadəyə verilib



Dünən Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyinin 6 əsas, 5 altbölmədən ibarət *bayraqmuzeyi.nmr.az* rəsmi internet saytı istifadəyə verilib. Saytın ana səhifəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" 2014-cü il 22 avqust tarixli Sərəncamı, ümummilli lider Heydər Əliyev və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Dövlət Bayrağı haqqındakı dəyərli fikirləri və muzeyin ekspozisiyasından görüntülər yer alır.

Saytın altbölmələrində izləyicilər muzey haqqında məlumatlarla, rəsmi sənədlərlə, Dövlət Bayrağı ilə bağlı yazılan məqalələrlə, keçirilən tədbirlərlə, muzeydə yerləşən bayraqlarla yaxından tanış olmaq imkanı əldə edirlər. "Virtual səyahət" bölməsi vasitəsilə dünyanın müxtəlif ölkələrindən muzeyi virtual olaraq gəzmək mümkündür. "Fotoqalereya" və "Videoqalereya" bölmələrində muzey və ekspozisiya haqqında fotoşəkil və videolar yerləşdirilib. "Əlaqə" bölməsində muzeyin ünvanı, e-mail adresi və telefon nömrəsi ilə bağlı məlumatlar var.

* * *



"Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi ilə əlaqədar Tədbirlər Planı"na əsasən bu mədəniyyət müəssisəsinin də rəsmi internet saytı istifadəyə verilib.

Özünəməxsus dizaynı ilə seçilən portal 6 əsas və 8 altbölmədən ibarətdir. *tarixmuzeyi.nmr.az* elektron ünvanı ilə təqdim olunan saytın ana səhifəsində izləyicilər Naxçıvan Dövlət Tarix Muzeyinin ekspozisiyasından görüntülərlə tanış ola, bölmə və altbölmələrə keçid edə bilərlər. "Muzey haqqında" bölmə 4 altbölmədən ibarətdir. Burada Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Dövlət Tarix Muzeyinin 95 illik yubileyinin keçirilməsi haqqında" 2019-cu il 2 avqust tarixli Sərəncamı yerləşdirilib, muzey və ekspozisiya zalları barədə ətraflı məlumatlar öz əksini tapıb.

Portalın maraq cəlb edən bölmələrindən biri də "Elektron kitabxana"dır. Burada qədim diyarımızın tarixi və Naxçıvan Dövlət Tarix Muzeyi ilə bağlı çap olunmuş dəyərli kitabların, elmi mənbələrin elektron variantları yerləşdirilib. Saytın "Media bölməsi" tədbirlər, məqalələr, fotoqalereya və videoqalereya olmaqla, 4 altbölmədən ibarətdir. Bu bölmələrdə izləyicilər muzey haqqında müxtəlif multimedia materialları ilə tanış ola bilərlər. Burada muzeydə keçirilən tədbirlər, məqalələr, eyni zamanda muzey ekspozisiyasının fotoşəkil və videolarını da izləmək mümkündür. "Virtual səyahət" bölməsi isə Naxçıvan Dövlət Tarix Muzeyinə virtual səyahət imkanı yaradır. Buraya keçid etməklə dünyanın istənilən nöqtəsindən muzeyin ekspozisiyası ilə əyani tanış olmaq mümkündür. Saytda "Bizimlə əlaqə" bölməsi də yaradılıb ki, burada muzeyin ünvanı, əlaqə telefonları, elektron poçt ünvanı və sosial şəbəkə hesabları barədə məlumatlar yerləşdirilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Yanvar ayında idmançılarımız 18 medal qazanıblar

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi tərəfindən gənclərlə iş, eləcə də idmanın kütləviliyinə nail olunması istiqamətində tədbirlər yanvar ayında da davam etdirilmişdir. Belə ki, ötən ay gənclərin Xatirə Muzeyinə ekskursiyası təşkil olunmuş, Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında "Xəmsə" milli intellektual oyunu, kitab müzakirələri, "Beynəlxalq turizm modeli Naxçıvanda" adlı seminar keçirilmişdir. Həmçinin sağlamlıq imkanları məhdud uşaqlara animasiya filmi nümayiş olunmuş, muxtar respublikanın ictimai həyatında və yaradıcılıq sahəsində fərqlənən gənclərin mükafatlandırılması tədbiri, Şərur rayonunda futbol hakimləri üçün təlim-məşq toplanışı təşkil edilmişdir.

Ötən ay gənclər arasında idmanın kütləviliyinə nail olmaq məqsədilə şahmat, sərbəst güləş, voleybol, basketbol üzrə birinciliklər, yoldaşlıq görüşləri, Naxçıvan Futzal Liqasında 13-cü turun oyunları keçirilmişdir.

Yanvar ayında idmançılarımız yüksək nəticələr əldə edərək Azərbaycan birinciliyində 4, beynəlxalq turnirlərdə 14 medal qazanmışlar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Futzal komandalarımız ilkə imza atdılar

*Azərbaycan Futbol Federasiyaları Assosiasiyası və Azərbaycan Futzal Federasiyasının təşkilatçılığı ilə keçirilən futzal üzrə Azərbaycan Kubokunda 1/16 final mərhələsinin oyunlarına yekun vurulub.*

İlk dəfə olaraq ölkə kubokunda Naxçıvan Futzal Liqasının iki komandası da mübarizə aparıb. Muxtar respublikamızı kubok oyunlarında "Badamlı" və "Nəqşicahan" futbol klubları təmsil ediblər.

Bu mərhələdə komandalar iki görüşdə üz-üzə gəliblər. "Badamlı" futbol klubu 1/16 final görüşündə "Forza Neftçi" komandası ilə qarşılaşıb. İlk oyunda 5:2 hesablı qələbə qazanan təmsilçimiz ikinci görüşdə də meydanı qələbə ilə tərk edib – 7:3.



"Nəqşicahan" futbol klubu isə ilk oyunda "Bakı TFK" ilə "sülh bağlayıb" – 0:0. Lakin ikinci oyunda daha əzmkar mübarizə aparan komandamız rəqib qapısından 5 top keçirməyə müvəffəq olub – 5:1.

Bu nəticələrdən sonra hər iki komandamız 1/8 final mərhələsinə yüksəlib. Bu mərhələdə "Badamlı" "Neftçi" ilə, "Nəqşicahan" isə "Bakı Fans" komandaları ilə qarşılaşacaqlar. Oyunlar mart ayının 11-i və 12-də, cavab qarşılaşmaları isə martın 18-i və 19-da keçiriləcək.

**Ceyhun MƏMMƏDOV**

# Hüquqi maarifləndirmə günün tələbidir

***Sual:*** ***Miras əmlakın faktiki qəbul edilməsi nədir və məhkəmədə işə baxılarkən faktiki qəbul etməni necə sübut etmək olar?***

**Cavab:** Mirasın faktiki qəbul edilməsi o deməkdir ki, bu üsulla vərəsənin konkret hərəkətləri və rəftarı onun mirası qəbul etmək niyyətini açıq-aşkar təsdiqləyir və sübut edir. Bu cür qəbuletmə miras əmlaka faktiki sahiblik və əmlakı faktiki idarə etmək üsullarını özündə ehtiva edir. Miras əmlaka faktiki sahiblik etmək o deməkdir ki, bu zaman vərəsənin mirası qəbul etmək niyyəti onun hərəkətlərindən açıq-aşkar görünür. Bunlara vərəsənin miras qoyanın yaşadığı evə köçməsi, miras qoyanla birlikdə yaşayan vərəsənin həmin mənzildə yaşamağa davam etməsi, vərəsənin miras əmlakı götürüb öz evinə aparması, miras qoyanın əmanət kitabçasını saxlaması, miras qoyanın həyatyanı sahəsində işləməsi halları misal göstərmək olar.

Miras əmlakı faktiki idarə etmək dedikdə vərəsənin etdiyi elə hərəkətlər başa düşülür ki, bu hərəkətlər, adətən, mülkiyyətçi öz mənafeyi üçün əmlakın saxlanması və normal təsərrüfatın aparılması üçün edir. Bu hərəkətlərə misal olaraq əmlakı lazımi vəziyyətdə saxlamaq (əgər miras qoyanın heyvanları varsa, heyvanları lazımınca bəsləmək), miras qoyanın əmlakını təmir etmək, əmlakla bağlı vergi ödəmək, sığortahaqqı və digər ödənişlər vermək, kirayə müqaviləsi ilə miras qoyana məxsus evdə yaşayan kirayəçilərdən kirayə haqqı almaq, miras qoyanın həyatyanı təsərrüfatını şəxsən aparmağı göstərmək olar.

Miras əmlakın faktiki cəhətdən qəbul edilməsini təsdiqləmək və sübut etmək böyük əhəmiyyətə malik olan məsələdir. Müxtəlif sənədlər miras əmlakın faktiki qəbul edilməsini təsdiq edə və sübuta yetirə bilər. Bunlara mənzil-istismar sahəsinin, vergi orqanının və yerli icra hakimiyyəti nümayəndəsinin verdikləri arayışlar, notariat qaydasında təsdiqlənmiş sazişi, avtomobilin texniki pasportunun vərəsədə olmasını təsdiq edən sənədləri misal göstərə bilərik.

***Naxçıvan Muxtar Respublikası Ali Məhkəməsinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 175